***<u>Göylü Atalı</u>***

# EVLADIN İMTİNAÇILIQ YOLU

Böyük idealları yaşatmaq asan bir şey deyil. Bunun üçün həyat tərzini dəyişməlisən, hamıdan fərqli düşünməli, fərqli yaşamalısan. Bir sözlə, Olmalısan. Olmasan, Oldura bilməzsən.

"Özümləşən – balaca "Mən"in zülmündən xilas olur, özüylə yadlığı aradan qaldırır, özüylə doğmalaşır.

Daxilində Yırtıcılıq gəzdirən – quldur.

İnsan daxilindən Yırtıcılığı silir, Yırtıcılıq əsarətindən, zülmündən qurtarır...

Balaca "Mən"ini öldürməyən, böyük "Mən"inə yetməz!

Heyvan özüylə barışır, insan barışmır!

Heyvan özüylə kifayətlənir, insan kifayətlənmir!

Heyvan özündə qalır. Buna görə də özümləşmir.

İnsan özündən yüksəyə qalxır. Buna görə də özümləşir.

Heyvanı təbiət yaradır. İnsanı təbiət doğur, ancaq insan özünü yenidən yaradır.

Heyvan həmişə özünə doğmadır.

İnsan əvvəllər özünə yad olur, sonradan yadlığı aradan qaldırır, özüylə doğmalaşır.

Özüylədoğmalaşmanın yolu özüylədöyüş olur" (Asif Ata. "Mütləqləşmək – Var Olmaq" Müqəddəs Kitabından).

Bunun üçün dönməz inamın olmalı, dərin idrakiliyə yetməlisən. Tarixi, bu günün gedişatını, gələcəyi düzgün qiymətləndirməyi öyrənməlisən. Daim düşünə bilmək və düşüncənin dalınca addım atmaq gərəkdir. Bütün bunlar adi həvəsə, adi şöhrətə sığmayan məsələlərdir. Ardıcıl ruhani əməl üstə yaşamaq nadir keyfiyyətdir. Çətinliklərə sinə gərmək, əzabla dolmaq, əzabın mənasına yetmək – bu səviyyədə yaşamaq böyük əqidə daşıyıcısına çevrilməkdir, fərdiliyi aşmaq və xəlqi məzmunla dolmaqdır. Bundan fərəh almaq, ömrü fərəhə çevirmək hər yolçunun işi deyil. Fərəhli ömür yaratmaq öz-özünə baş vermir. Fərəh ömrə çətinliklərdən keçib gəlir. Buna görədir ki, əqidə, amal şəxslərdə davamlı, uzunömürlü olmur. Əqidə adamı da yüzildə bir dəfə yetişir. Ancaq əsil, həqiqi, barmaq sayda əqidə adamı yüzillərə bərabər hal və yön yaradır – İnsani hal, insani yön. Bunun üçün fərdlərdə yüksək mənəvi keyfiyyətlər aşkarlanmalıdır. Özünə sahib olmaq – Ruhani İradə gücünə yetməklə başa gəlir.

Bəşəriyyətin keçib gəldiyi yollara diqqət yetirsək, saydığımız, vurğuladığımız halları bir az daha dərindən dərk edə bilərik. İnsan, həyat özündən ayrıldığı üçün ayrı-ayrı fərdlər xilaskarlıq yönündə axtarışlar edir, bu isə onların narahat yaşamasına səbəb olur.

İnsanın uğrunda mübarizə apardığı Amallara onun öz içindən başlayan yol ilə qovuşmaq mümkündür. Bu isə vurğuladığımız kimi, böyük çətinliklər aşmağı tələb edir. Xalqın gələcəyi onun bugününü ötən fərdlərlə aydınlaşa bilər. Xalqın gələcəyi bugünündən yüksək olmalıdır, – bugünü üzərində qurula bilməz. Bunun üçün xalqın içində ruhani imkanlar aşkarlanıb örnək yaratmalıdır. Hər şey xalqın öz ruhuna doğmalaşmasına xidmət etməlidir.

Xalq öz həyatını mənəvi-ruhani tələblər üzərində qurmaq üçün tərbiyəvi məna kəsb edən nağıllar, əsatirlər, mifologiyalar yaratdı. Nağıllarda insanı xalqa qovuşduran xarakterlər aşkarlanıb təqdim olunur. Nağıllar qəhrəmanlara qırx otaq açdırır. Burada qəhrəmandan həyati cazibəni, nəfsi arxada qoymaq, insani bir inadla irəliləmək tələb olunur. Birinci otağın cah-cəlalı, şirnikdirici, tamah yaradan cazibəsi, ikinci otağın bağı-bağçası, gülü-bülbülü, məftunedici, füsunkar gözəlliyi, eləcə də üçüncü, onuncu, otuz doqquzuncu otaqların irəliləməyə mane olan cazibədarlığı qəhrəmanlığın yolunu kəsən maneədir. Bu maneənin adı həyat nəşəsidir. Nəhayət, qırxıncı otaqda saçından asılan qız. Qəhrəmanın onu açıb yerə qoyması qara qüvvələrlə (divlərlə) döyüşüb azadlığa çıxarması. Zərdüştün Hürmüzdü – Əhrimənlə döyüşü nağıllarımızda ifadə olunub. Bütün bunlar nağıllaşmış həyat fəlsəfəsidir.

“İnsanın öz üzərində qələbə çalması, azadlığa can ataraq insani, xəlqi xilas yönü yaratması rəmzləşib, nağıllaşıb istəklərimizdə. Nağıllar nə qədər tərbiyəvi əhəmiyyət daşısa da, insanın həyata gerçək təsirlərindən aşağıdır” (Soylu Atalı). Ona görə həyatda peyğəmbərlərə ehtiyac yarandı. Ali həyatın öz tələbindən doğan ideyaların gerçəkləşdirilməsi gərək idi. Asif Atanın Ruhani İntibahı da ali dəyərlərin rəmzlərdən, nağıllardan gerçək yaşama gətirilməsi üçün başlanan ruhani mübarizədir. Asif Atanın məqsədi İnsani qüdrəti aşkarlamaqla həyatın ruhani ahəngini dəyişməkdir. ***“Bunun üşün böyük ideyaları tarixə çevirmək yox, taleyə çevirmək gərəkdir”*** (Soylu Atalı). Ata böyük ideyaları həyata keçirmək üçün bizə Azərbaycanı tanıtmaqdan başladı. Azərbaycanın ruhani mahiyyəti Zərdüştün işıqçılığında, Dədə Qorqudun ağsaqqallığında, Babəkin fərəhçiliyində, Hürufilərin ənəlhəqqində, Füzulinin aşiqlik dünyasında, Muğamımızın, Sazımızın İnsanı təmizləyən, ucaldan haraylarında ifadə olunubdur. Bunları bilmədən Azərbaycana balaca baxmaq olar. Balaca Azərbaycanı sevməzsən, onun uğrunda ruhani mübarizə aparmazsan, gələcəyini qurmağa ömür həsr eləməzsən. Atanın qarşısında “Ömrüm sənindir, Ata. Onu götür, istədiyin kimi sərf elə” andı içmişik. Əslində ömrümüzü insanlığın gələcəyinə, Yurdumuzun sabahına vermişik. Ata bizi Azərbaycanın bugünündən üstün olmağa çağırırdı. Azərbaycanın bugünündə məna yoxdur, o öz ruhani mahiyyətindən ayrılıb. Təqlidçilik yolu tutub, kölgə kimidir. Ona görə də parçalanmış durumdadır. Azərbaycanın gələcəyi Mütləqə İnama bağlıdır. Bunun üçün Ata bizə Mütləqi tanıtdı. Yabançı Baxışların təsirindən çıxmağı öyrətdi. Fədakarlığın, təmənnasızlığın yollarına qoşdu. İmtina ləyaqəti aşıladı.

“Özümləşən – ömrünə sahib olandır.

Ömrə sahib olmaq – ömür üzərində insanın hakimliyi, ömrü istənilən səmtə yönəltmək, istənilən niyyətə həsr etməkdir.

Ömür insanın sərvətidir. O, onu istədiyi kimi xərcləyir.

İnsanın ağlından, duyğularından, iradəsindən kənarda ömrə sahib olan Qüvvə yoxdur.

Ömrə sahib olmaq – ömrün cilovunu öz əlinə almaq deməkdir.

Ömrün amiri və memarı insan özüdür.

Nə cəmiyyət, nə Başqası, nə qanun-qaydalar İnsanın bu əzəli səlahiyyətini inkar edə bilməzlər”. (Asif Ata. “Mütləqləşmək – Var Olmaq” Müqəddəs Kitabından).

***Evladlaşma – Yurduna, Ulusuna gərəkli insan olmaq deməkdir.*** Evladlaşma hər şeyə münasibətin əsaslı olaraq dəyişməsi deməkdir. Nisbi həqiqətçiliyi ötmək, nisbi vətənsevərliyi ötmək, nisbi qeyrəti ötmək, nisbi mübarizəni ötmək – Meyara doğmalaşmaq deməkdir. Meyarımız – Mütləqilik tələbidir.

Şöhrətçilikdən imtina, nəşəçilikdən imtina, varidatçılıqdan imtina, rütbəçilikdən imtina, mükafat əsarətindən imtina... Bunlar xüsusi haldır, çətin məsələdir. Ancaq mümkünsüz deyil. Bunsuz insan var olmur, mübarizə baş tutmur. Ona görə bu Yolu getmək azlara nəsib olur. Bu Yolu gedə bilmək üçün Asif Ata Evlad qarşısında özüylədöyüş əməli yazıb. Hər addımda çaşmaq imkanı var – Özüylə döyüşməsən, bütövləşməzsən. İçəridən qurulmaq gərək. Bunun üçün qurulmağa inanmaq gərək. Mütləqə İnamın xalqda oturuşmasına inanmaq üçün xalqın bugünkü səviyyəsinə baxmaq olmaz. Özünün içdən dəyişə bilməyinə inanmaq gərəkdir. Dəyişilməni özündən kənarda axtarmaq nəticə vermir. Yalnız öz üzərində qələbə çalan əbədi Yol gedə bilər. ***Əbədi yolçuluq – kamillikdir və yaradıcılıqdır.***

“Özgələşən yaşamır – özümləşən yaşayır.

Özgələşdirən yaşamır – özümləşdirən yaşayır.

Özündə qalan yaşamır, Başqalaşan yaşayır” (Asif Ata. “Mütləqləşmək – Var Olmaq” Müqəddəs Kitabından).

İnanırıq, sonra inandırırıq; qururuq, sonra qururuq; yaşayırıq, sonra yaşadırıq. İçimizdən başlayan yolu doğru sayırıq. Evladlıq bu cür yaşamaqda təsdiqini tapır. Peyğəmbərimiz Asif Ata belə buyurub: ***“İnsanlaşın, İnsanlaşdırın!”***

***Atamız Var Olsun!***